**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI KAFEDRASI**

**MAGİSTR TƏHSİL PİLLƏSİ ÜÇÜN**

**İXTİSAS: 060201 FİLOLOGİYA**

**FƏNN:İF-M2524 "AZƏRBAYCAN MİF, ƏFSANƏ, RƏVAYƏT VƏ LƏTİFƏLƏRİ"**

**(II kurs)**

# PROQRAM

**BAKI - 2023**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI KAFEDRASI**

**MAGİSTR TƏHSİL PİLLƏSİ ÜÇÜN**

**İXTİSAS: 060201 FİLOLOGİYA**

# FƏNN: İF-M 2524 "AZƏRBAYCAN MİF, ƏFSANƏ, RƏVAYƏT VƏ LƏTİFƏLƏRİ"

**(II kurs)**

**PROQRAM**

**BAKI - 2023**

**Tərtib edən:** Həsənova Könül Kamil qızı – Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru

**Redaktor:** Orucova Səhər Hidayət qızı –Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, professor, filologiya üzrə elmlər doktoru

**Rəyçilər:**

Talıblı Etibar Əjdər oğlu – Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti, filologiya elmləri namizədi

***© "Bakı Universiteti" nəşriyyatı, 2023***

# AZƏRBAYCAN MİFOLOGİYASI

## İZAHAT VƏRƏQİ

«Azərbaycan mif, əfsanə, rəvayət və lətifələri» fənni (İF-M2524) magistratura pilləsinin II kursunda 30 saat mühazirə, 30 saat məşğələ olmaqla semestr ərzində cəmi 60 saat həcmində tədris edilir. Fənnin həcmi mütəxəssis hazırlığı üzrə Dövlət Standartlarına uyğundur. Fənn üzrə tədris işinin əsas növü mühazirə və məşğələlərdir. Məşğələlərlə yanaşı, tələbənin dərsdənkənar vaxtda yerinə yetirdiyi müntəzəm sərbəst işləri, folklor örnəklər toplamaq və mətnləri ideya-bədii baxımdan tədqiq etmək də tədrisin keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir.

### Fənnin mənimsənilməsinin məqsəd və vəzifələri

**Kursun məqsədi** – Tələbələri mif və mifologiya, mifoloji zaman və məkan, mifoloji şüur və onun strukturu, mif və ritual, mifoloji mətnin özünəməxsus cəhətləri, mif və nağıl, mif və epos, mif və əfsanə, mif və din, mif və fəlsəfə haqqında hərtərəfli məlumatlandırmaqdır. Əfsanə, rəvayət, lətifələrin janr xüsusiyyətlərini öyətmək və toplanma, nəşr və tədqiqində alimlərimizin gördükləri işləri dəyərləndirməkdir.

**Kursun vəzifələri:**

1. Tələbələrdə mif və mifologiya, mifoloji şüur və onun strukturu, mifoloji zaman və məkan, mif, din, fəlsəfə və s. haqqında təsəvvür yaratmaq;
2. Tələbələri dünyanın bir çox mifoloqlarının fikir və mülahizələri ilə tanış etmək;
3. Azərbaycan mifoloji mətnlərinin tipoloji baxımdan kosmoqonik, etnoqonik və təqvim miflərinə ayrılması, onların əsas məzmununu tələbələrin diqqətinə çatdırmaq;

4. Tələbələri Azərbaycan mifoloji mətnlərinin bəhrələndiyi mənbələr: 1.Qədim türk dastanları; 2. “Avesta”; 3. İslam mifləri barədə məlumatlandırmaq;
5. Tələbələrdə makrokosmosun (dünyanın) mikrokosmosa (insana) tranformasiyası, mifoloji obrazların mənşəyi və xüsusiyyətləri, mifoloji təfəkkürdə rənglərin semantikası və sakral rəqəmlərin simvolikası ilə bağlı bilikləri formalaşdırmaq;
6. Tələbələrə əfsanə və rəvayətlərin spesifik xüsusiyyətləri, fərqləri və beynəlxalq sistemləşdirilməsi ilə bağlı məlumat vermək;
7. Tələbələri lətifə janrının xalq ədəbiyyatındakı yeri, gülüşün genezisi və növləri, lətifə qəhrəmanları ilə tanış etməkdir;
8. Azərbaycan folkloru janrlarının türk kontekstində yerini müəyyənləşdirmək və dünya folklorunun janrları ilə müqayisəli təhlil etməkdir.

## Fənnin tədris prosesində yeri

«Azərbaycan mif, əfsanə, rəvayət və lətifələri» fənnində xalqımızın milli, mənəvi-əxlaqi dəyərlərini, etnopsixologiyasını, inanc sistemini, tarixini, etnoqrafiyasını özündə əks etdirən mifologiya elmi və janrlar (əfsanə, rəvayət, lətifə) tədris olunur.

«Azərbaycan mif, əfsanə, rəvayət və lətifələri» fənninin (İF-M2524) təqdim olunan proqramında tədris prosesində qarşıya qoyulan məqsəd və vəzifələrin doğurduğu nüanslara diqqət yetirilmişdir. Proqramda fənlərarası əlaqənin gözlənilməsi tələbinə riayət edilmişdir. Burada tələbələrin bakalavr təhsil pilləsində keçdikləri «Azərbaycan şifahi xalq ədəbiyyatı», «Azərbaycan mifologiyası», «Azərbaycan dastanları», magistr pilləsində öyrəndikləri «Azərbaycan folklorunun janr sistemi», «Ktabi-Dədə Qorqud» və dünya eposu», «Folklor poetikası», «Qədim dünya mifləri», «Folklorşünaslığın tarixi» fənlərindən əldə etdikləri biliklərin bazasına əsaslanılmışdır.

«Azərbaycan mif, əfsanə, rəvayət və lətifələri» fənninin təqdim edilən proqramında mühazirə mövzuları, onların hər

birinin əhatə etdiyi məsələlərin tezisləri, həmçinin sərbəst işlərin mövzuları öz əksini tapmışdır. Proqramda eləcə də fənn ilə bağlı Azərbaycan, türk və rus müəlliflərinin əsərlərindən ibarət nəzəri ədəbiyyat, bu sahədəki son tədqiqatlar diqqətə çatdırılmışdır.

**Fənnin mənimsənilməsi nəticəsində tələbə bilməlidir:**

- Yaradılışın ilkin dərki mifologiyadan başlayır.
- Azərbyacan əfsanələri mifoloji və genetik düşüncə tarixinin bərpası üçün zəngin mətn bazasıdır.
- Rəvayətlər tarixi gerçəklikləri özündə əks etdirən və şahidlik funksiyası əsasında formalaşan janrdır.
- Azərbaycan folklorşünaslığında xalq gülüşünün arxaik köklərini, poetikasını və ənənəvi obrazlarını (kosa, keçəl, Molla Nəsrəddin, Bəhlul Danəndə vəs.).
- Azərbaycan mifoloji mətnlərinin, əfsanə, rəvayət və lətifələrin toplanma, nəşr və tədqiq tarixini, qaynaqlarını və təsnifatını.

**Bacarmalıdır:**

- Şifahi xalq ədəbiyyatı nümunələrini (əfsanə, rəvayət, lətifə və.s) toplamaq;
- topladığı folklor nümunələrini ayırd etmək üçün onların özünəməxsus cəhədlərini, janr xüsusiyyətlərini və funksiyalarını bilməlidir;
- mövzu ilə bağlı elmi məqalələri, monoqrafiyaları, nəzəri ədəbiyyatı araşdırmağı;
- müasir audio, video, multimediya və elmi kommunikasiya vasitələrindən istifadə etməyi.

**Yiyələnməlidir:**

- Azərbaycan mifoloji mətnlərini, əfsanə, rəvayət və lətifələri nəql etmək qabiliyyətinə;
- öyrəndiyi janrlarla bağlı informasiyaları tədqiq və təhlil etmək bacarığına.

## Mövzular üzrə saatların bölgüsü

| № | Mövzular | Saatların miqdarı | O cümlədən | |
|---|---|---|---|---|
| | | Cəmi | müha. | məşğə. |
| 1 | Mif və mifologiya haqqında ümumi məlumat.Miflərin təsnifi | 4 | 2 | 2 |
| 2 | Mifoloji şüurun genetik struk-turu | 4 | 2 | 2 |
| 3 | Azərbaycan mifoloji mətnlə-rinin bəhrələndiyi mənbələr. Toplanma, nəşr və tədqiq tari-xi. | 4 | 2 | 2 |
| 4 | Kosmoqonik və esxatoloji miflər | 4 | 2 | 2 |
| 5 | Etnoqonik (geneloji)miflər | 4 | 2 | 2 |
| 6 | Təqvim mifləri | 4 | 2 | 2 |
| 7 | Azərbaycan mifoloji düşün-cəsində sakral rəqəmlər və rənglərin semantikası | 4 | 2 | 2 |
| 8 | Əfsanələr | 4 | 2 | 2 |
| 9 | Əfsanə mətnləri və etioloji xüsusiyyərləri | 4 | 2 | 2 |
| 10 | Rəvayətlər tarixi gerçəkliklə bağlı janr kimi | 4 | 2 | 2 |
| 11 | Rəvayət mətnləri və onalrın | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | tarixi-genetik, əxlaqi-ibrətamiz xüsusiyyətləri. | | | |
| 12 | Gülüşün genezisi. Lətifə janrı | 4 | 2 | 2 |
| 13 | Molla Nəsrəddin lətifələri | 4 | 2 | 2 |
| 14 | Bəhlul Danəndə lətifələri | 4 | 2 | 2 |
| 15 | Reqional lətifələr | 4 | 2 | 2 |
| **Cəmi:** | | **60** | **30** | **30** |

## Mövzuların qısa məzmunu

### Mövzu 1. Mif və mifologiya haqqında ümumi məlumat. Miflərin təsnifi - 2saat

Mifin bəşəriyyətin mədəni tarixinin ən qədim hadisəsi, dünyagörüşü faktı olması. Mif şüur və davranış modeli aktı kimi. Mifologiya dünyanı özünəməxsus qanun və vasitələrlə biçimləyən, izah edən dinamik işarələmə sistemi kimi.

Mifoloji zaman və mifoloji məkan. Məkan və zaman haqqındakı təsəvvürlərin təkamülü.

Dünyanın bir çox mifoloqları tərəfindən miflərin təsnifi / E.B.Taylor, V.Vundt, M.İ. Şaxnoviç, Y.M.Meletinski, S.Q. Klyaştornı bə başqaları /.

Dünya xalqlarının miflərinin tipoloji baxımdan 3 qrupa ayrılması: 1. Kosmoqonik miflər; 2. Etnoqonik miflər; 3. Təqvim miflər.

Mif və nağıl. Mif və epos. Mif və ritual. Mif və din. Mif və fəlsəfə. Mifologiya və dini etiqadlar - fəlsəfi biliklərin mənəvi mənbəyidir. Fəlsəfənin yaranması haqqında mifoloji və qneseoloji konsepsiyalar.

[3], [6], [8], [10], [14], [31], [42], [48]

## Mövzu 2. Mifoloji şüurun genetik strukturu – 2saat

Şüur, onun mənşəyi, mahiyyəti və funksiyaları. Şüurun yaranmasının ilkin bioloji şərtləri. Duyğu, qavrayış və təsəvvür şüurun sistemli elementləri kimi. Mif və simvol.

Mifoloji şüur istimai şüurun ilkin forması kimi. İnsan - psixikanın, şüurun daşıyıcısıdır. İnsan şüuru ilə heyvan psixikasının fərqli cəhətləri.

Mifoloji şüurun strukturu: animizm, fetişizm, totemizm, antropomorfizm və magiya (E.Taylor, C.Kokyara və s.).

Ruh və bədən, onların vəhdəti. İnkarnasiya, reinkarnasiya və inisiasiya prosesləri.

Hami ruhlar haqqında miflər. Altay şamanlarına görə ruhların kateqoriyaları. Bədxah ruhlar (Albıs / Albastı / A1 arvadı və s.).

Şamanizm mediasiyaya söykənən, inanışlardan ibarət dini və müalicə yönlü praktik fəaliyyət növü kimi. Şaman cəmiyyətlə fövqəltəbii ruhlar aləmi arasında bir vasitəçi mediator kimi.

Azərbaycan mifoloji mətnlərində hami ruhların yeri.

Qurban və qurbankəsmə mifoloji ritualı.

[3], [6], [10], [29], [42], [69]

## Mövzu 3. Azərbaycan mifoloji mətnlərinin bəhrələndiyi mənbələr. Toplanma, nəşr və tədqiq tarixi – 2saat

Azərbaycan mifoloji mətnlərinin bəhrələndiyi mənbələr:

1. Qədim türk dastanları («Köç», «Ərgənəqon», «Oğuz kağan», «Göytürk» və s.).
2. «Avesta» (strukturu və əsas müddəaları. “Avesta” dakı dualizm. Xeyir və Şərin mübarizəsi).
3. İslam mifləri - İslam dininin təsiri altında formalaşan miflərin mifoloji mətnlərimizin üst qatında görünməsi. İslam dininin təsiri altında formalaşan miflərdə dünyanın yaradıcısı kimi Allahın çıxış etməsi.

M. Kazımbəyin “Firdovsiyə görə fars əsatiri” əsəri mifologiya sahəsində azərbaycanlı alim tərəfindən tədqiq olunmuş ilk araşdırma kimi. Y. V. Çəmənzəminli Azərbaycan folkloru və mifologiyası haqqında dəyərli fikirlər söyləmiş bir araşdırıcı kimi.

M.H.Təhmasibin Xıdır, Təpəgöz, Dədə Qorqud surətləri ilə bağlı irəli sürdüyü fikirlər.

Mirəli Seyidovun mifologiya sahəsində elmi axtarışları (“Azərbaycan mifik təfəkkürünün qaynaqları”, “Azərbaycan xalqının soykökünü düşünərkən” və s. əsərləri).

“Azərbaycan mifoloji mətnləri” kitabı Azərbaycan miflərinin toplu şəkilində nəşr sahəsində ilk təşəbbüs kimi. A.Şükürovun dünya xalqlarının mifoloji düşüncəsini öyrənən “Mifologiya” kitabları.

C.Bəydilinin (Məmmədov) ensiklopedik lüğət səciyyəsi daşıyan “Türk mifoloji sözlüyü” kitabı. Onun “Türk mifoloji obrazlar sistemi: struktur və funksiya” kitabında mifoloji obrazların funksional semantikası, türk tanrıçılığı və s.-nin öyrənilməsi.

F.Bayatın “Mifologiyaya giriş”, 2 hissəli “Türk mifoloji sistemi” kitabları. R. Qafarlının “Mif, əfsanə, nağıl və epos (epik ənənədə janrlararası əlaqə)”, “Azərbaycan türklərinin mifologiyası” kitabları.

S.Rzasoy Oğuz mifologiyasında ritual modeli, xaos və onun paradiqmaları və s. öyrənən araşdırıcı kimi. Mifoloji araşdırmalar sahəsində R.Bədəlov, B.Abdulla, R.Əliyev, R. Kamal, A. Xəlil və başqalarının fəaliyyəti haqqında.

[3], [5], [6], [7], [8], [10], [15], [42], [48]

## Mövzu 4. Kosmoqonik və esxatoloji miflər – 2saat

Kosmoqonik miflərin əsas məzmununu “nizamlayıcı kosmik başlanğıcla dağıdıcı xaotik başlanğıcın mübarizəsinin” təşkil etməsi. “Kosmos” və “Xaos” anlayışları. Kosmoqonik miflərdə təbiət insan əlaqəsi. Dünyanın yaradılmasında müəyyən qayda və ardıcıllıq.

Türk xalqlarının həyatında dünyanın yaranması, kosmoqonik görüşlərlə bağlı olan yaradılış dastanları (V.Radlov, V. Verbitski və s.).

«Oğuz kağan» dastanında və Azərbaycan miflərində dünyanın yaradılışı. Bəzi miflərimizdə Boz öküz dünyanın yaradıcısı kimi.

Səmavi kitablarda – Tövratda, Bibliyada, İncildə, Qurani-Kərimdə yaradılış motivləri.

Kosmik qəza - ümumdünya daşqını ilə bağlı miflər. Ümumdünya daşqını ilə bağlı miflərin ümumi sxemi. «Nuhun tufanı» ilə bağlı miflərin çoxvariantlılığı. Bu miflərin İslam dininin altında formalaşması.

Esxatoloji miflər. Dünyanın sonu ilə bağlı türk xalqları içərisində V.Radlov və V.Verbitski tərəfindən toplanmış miflər. Dünyanın sonu ilə bağlı ibtidai insanların ilkin, primitiv görüşlərinin bu miflərdə əksi.

[3], [6], [8], [10], [14], [15], [42], [48], [64], [65]

## Mövzu 5. Etnoqonik (geneloji) miflər- 2saat

İnsanın, etnosun, dövlətin yaranması, onların mənşəyi və genezisi etnoqonik miflərin əsas məzmunu kimi. Türk xalqlarının epik düşüncəsində ilkin insan və ya insan cütünün yaranmsı ilə bağlı mifoloji mətnlər. İlkin əcdad, mədəni qəhrəman və demiurq statusu ( Oğuz xaqan, Koroğlu və s.).

Geneoloji miflər içərisində totem inancı - əcdad kultu (işıq, ağac, heyvan, bitki, quş nəslin əcdadı sayılır).

«Avesta», İslam, Tövrat, İncil, Qurani-Kərimdə ilk insan və insan cütü haqqında olan miflər və onlar arasındakı semantik yaxınlıq.

Makrokosmosun (dünyanın) mikrokosmosa (insana) tranformasiyası.

[3], [5], [6], [7], [8], [10], [32], [42], [44], [45], [48], [64], [72], [73]

## Mövzu 6. Təqvim mifləri – 2saat

Təqvim mifləri mifoloji təfəkkürdə zaman məfhumu ilə bağlı məqamları özündə cəmləşdirir. Mifoloji sistemin ən vacib hissəsini təşkil edir.

Zamanın mifoloji təfəkkürdə modelləşməsi - zoomorfik (12 heyvan görkəmində Türk təqvimi və s.), antropomorfik (zamanın insan obrazında təcəssüm etməsi), biomorfik (bitkisəl- Dünya ağacı və s.), cansız varlıqlarla (astral-əyəvi).

Azərbaycan təqvim miflərində Novruz bayramı və onun semantik mənşəyi , arxaik ritualları.

[3], [6], [7], [8], [10], [18], [42], [48], [79]

## Mövzu7. Azərbaycan mifoloji düşüncəsində sakral rəqəmlər və rənglərin semantikası- 2saat

Mifik təfəkkürdə kəmiyyət və rəng anlayışı. Saylar və rənglər dünya modelinin mühüm elementi və folklorun epik ənənəsində işlənən poetik vasitə kimi.

İlkin arxaik ənənədə rəqəmlərin kosmik, sakral mənada işlənməsi. Astral mifologiyada rəqəmlərin planetlərlə, göy cisimləri ilə əlaqələndirilməsi. Folklorun epik ənənəsində işlənən rəqəmlərin qruplaşdırılması: 1. Qədim insanın mifik təsəvvürlərini əks etdirən sakral rəqəmlər; 2. Kəmiyyət anlamı bildirən adi və ya ənənəvi rəqəmlər.

Qədim türk damğaları və dövlət atributlarında rəqəmlərin mifoloji kökləri.

Azərbaycan folklorunda sakral rəqəmlərin- : 1, 2, 3, 4, 5, 7, 8, 9 və 40 xarakterik cəhəti. “Oğuz Xaqan”, “Kitabi-Dədə Qorqud”, “Koroğlu” dastanlarında rəqəmlərin riyazi-mifolji strukturu.

Türk xalqlarının mədəniyyətində, folklorunda rənglərin semantik, fəlsəfi mənası, çalarlığı, özündə ehtiva edən milli-mənəvi dəyərləri, müsbət-mənfi rəmzləri, bir simvol olaraq paradoksal təbiətinin xüsusiyyətləri. Ağ, qara, qırmızı rənglərin əsas spektiri.

“Kitabi-Dədə Qorqud” abidəsində rənglər.

[1], [2], [7], [10], [12], [15], [18], [24], [30], [42], [46]

## Mövzu 8. Əfsanələr -2 saat

Əfsanə janrının spesifik xüsusiyyətləri. Dünya folklorşünaslığında əfsanələrin 2 əsas xüsusiyyətinin olması (dini məzmunda olması, fantastika üzərində qurulması). “Əfsanə”nin ilk tərifini verən alman dili və ədəbiyyatı sahəsinə uğurlu əsərlər bəxş edən Grimm qardaşları və V.Şvarts, M. Müller və b.- nın araşdırmaları.

Folklorşünaslıqda əfsanələrin toplanması, nəşri, tədqiqi, mövzu və məzmun baxımından təsnifi problemi: 1930-cu illərdə A.V.Baqrinin tərtib etdiyi “Azərbaycan və ətraf ölkələrin folkloru” toplusunun I və III cildlərində, “Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar” (СМОМПК) məcmuəsində (1881-1929) əfsanələr (2-ci, 7-ci, 9-cu, 11-ci, 13-cü, 14-cü, 17-ci, 18-cü, 21-ci, 26-ci, 32-ci, 34-cü, 42-ci buraxılışlar) rus dilində nəşr olunmuşdur.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Mirzə Kazımbəyin, F.Köçərlinin, Y.V.Çəmənzəminlinin, V.Xuluflunun, T.Bayraməlibəyovun, R.Əfəndizadənin topladığı örnəklər sırasında əfsanələrin müstəsna yeri vardır. Azərbaycan əfsanələrinin tədqiq və təsnifində H.Zeynallı, R.Əfəndiyev, M.H.Təhmasib, M.Rəfili, A.Nəbiyev, S.Paşayev, T.Fərzəliyev, V.Vəliyevin böyük xidmətləri olmuşdur.

Folklorşünas İsrafil Abbaslının əfsanə və rəvayətlərin janr xüsusiyyətləri, onların oxşar və fərqli tərəflər ilə bağlı elmi-nəzəri fikirləri. S.Paşayevin “Yaşayan əfsanələr”(1973), “Yurdumuzun əfsanələri”(1976), “Yanardağ əfsanələri”(1978), “Azərbaycan türklərinin xalq əfsanələri” (2009) və s. araşdırmaları. R.Qafarlı “Mif, nağıl, əfsanə” adlı araşdırmasında bu örnəklərin janr xüsusiyyəti və saxtalaşdırılması məsələləri. M.İsmayılın “Naxçıvan əfsanələri” araşdırması və problemə fərqli münasibəti.

[4], [8], [10], [11], [12], [17], [23], [49], [50], [51]

## Mövzu 9. Əfsanə mətnləri və etioloji xüsusiyyətləri- 2saat

Əfsanə mətnlərini "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar"– QƏXTMT (СМОМПК) (1881-1929) məcmuəsindən, S.Paşayevin "Azərbaycan xalq əfsanələri" (1985), "Azəbaycan türklərinin xalq əfsanələri", «Əsatirlər, əfsanə və rəvayətlər»(2005) kitabından, AMEA Folklor İnstitutunun nəşr etdirdiyi AFA (Azərbaycan Folklor Antologiyası), AFK (Azərbaycan Folklor Külliyatı), Güney Azərbaycan Folkloru, QFBT (Qarabağ – folklor da bir tarixdir) seriyalarının bütün cildlərindən və digər mənbələrdəndan araşdırıb oxumaq və təhlil etmək.

Mətnləri janrın aşağıdakı xüsusiyyətləri əsasında təhlil etmək:

1) Əfsanələr miflər və rəvayətlər kimi etioloji xarakter daşıyır.

2) Bu yaranış mövcud nizam içərisində etnososial kodda verilir. Yaranış haqqında mətnin qəhrəmanları insanlar və insana məxsus xüsusiyyətləri və əlamətləri daşıyan varlıqlardır.

3) Bu varlıqların yaranışı qeyri-adi şəkildə baş verir.

4) Yaranış aktı əvvəl mövcud olan varlığın şəkil, yaxud keyfiyyət dəyişikliyi timsalında gerçəkləşir.

5) Yaranış ənənəvi inanclar müstəvisində baş verir.

6) Əfsanə mətni informativ xaraker daşıyır və ona görə də qısa və epizodik olur.

7) Dünyada mövcud olan varlıqlarla bağlı olur.

Əfsanə mətnlərini aşağıdakı etioloji xüsusiyyətlərinə görə qruplaşdırmaq:

I Səma cisimlərinin mənşəyi haqqında: 1. Ay və Günəş 2. Ulduzlar 3. Kosmoqonik məzmunlu digər yaranışlar

II Məkanların mənşəyi: 1. Dağların, daşların, qayaların yaranışı 2. Su hövzələrinin yaranışı 3. Məkanlara aid hər hansı əlamətin yaranışı

III Bitki örtüyünün mənşəyi: 1. Ağacların, kolların yaranışı 2. Güllərin, otların yaranışı 3. Bitki örtüyünə aid hər hansı əlamətin yaranışı

IV Heyvanların, quşların, həşəratların mənşəyi: 1. Heyvanların yaranışı 2. Quşların yaranışı 3. Həşəratların yaranışı 4. Heyvan və quşlara aid hər hansı əlamətin yaranışı

V İnsana aid yaranışlar (tarixi, dini şəxsiyyətlər)

VI Əşyanın yaranışı

VII Ziyarət yerləri ilə bağlı yaranışlar

Əfsanələrdə yasağın pozulmasına görə verilən cəza, çevrilmə və möcüzə.

[4], [8], [12], [19], [20], [21], [22], [25], [37], [43], [49], [50], [51], [55],[56], [57], [58]

## Mövzu 10. Rəvayətlər tarixi gerçəkliklə bağlı janr kimi - 2saat

Rəvayətin spesifik xüsusiyyətləri və ona retro-spektivçiliyin xarakterik olması. Rəvayət – bu və ya digər hadisənin şahidi və ya iştirakçısı olmuş şəxsin müəyyən zaman müddətindən sonra şifahi təhkiyəsindən yaranmış mətn kimi.

Folklorşünaslıqda rəvayətlərin toplanması, nəşri, tədqiqi, mövzu və məzmun baxımından təsnifi problemi: İlk dəfə 1882-ci ildə toplanmış və rus dilinə çevrilmiş rəvayətlərə 1881-1929-cı illərdə nəşr olunan "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar" (СМОМПК) məcmuəsinin bir çox buraxılışlarında, A.Baqrinin üç cildlik "Azərbaycanın və qonşu ölkələrin folkloru" (1930) toplusunda rast gəlinir. Azərbaycan rəvayətlərinin tədqiq və təsnifində H.Zeynallı, R.Əfəndiyev, M.H.Təhmasib, Ə.Axundov, M.Rəfili, A.Nəbiyev, S.Paşayev, T.Fərzəliyev, V.Vəliyev, İ.Abbaslı, R. Qafarlının böyük xidmətləri olmuşdur.

Rus alimlərindən A.İ.Nikiforov, V.K.Sokolov, K.V. Çistovun və İ. Abbaslı, R. Qafarlı, R. Əliyevin təsnifatları.

[4], [8], [13], [17], [49], [50], [52]

## Mövzu 11. Rəvayət mətnləri və onların tarixi-genetik, əxlaqi-ibrətamiz xüsusiyyətləri -2saat

Rəvayət mətnlərini "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar" – QƏXTMT (СМОМПК) məcmuəsindən (1881-1929) (2-ci, 7-ci, 9-cu, 11-ci, 13-cü, 14-cü, 17-ci, 18-cü, 21-ci, 26-ci, 32-ci, 34-cü, 42-ci buraxılışlar), S.Paşayevin "Azərbaycan türklərini xalq rəvayətləri" (2011), «Əsatirlər, əfsanə və rəvayətlər»(2005) kitabından, AMEA Folklor İnstitutunun nəşr etdirdiyi AFA (Azərbaycan Folklor Antologiyası), QFBT (Qarabağ – folklor da bir tarixdir), AFK (Azərbaycan Folklor Külliyatı), Güney Azərbaycan Folkloru seriyalarının bütün cildlərindən, Ə.Axundovun iki cildik "Azərbaycan Folklor Antologiyası"ndan (1984) və digər mənbələrdəndan araşdırıb oxumaq və təhlil etmək.

Toponimik, əxlaqi-ibrətamiz və dini rəvayətlərin əsas struktur elementləri.

Aşıq rəvayətlərinin özünəməxsus spesifikası.

[8], [19], [20], [21], [22], [37], [43], [55], [56], [57], [58]

## Mövzu 12. Gülüşün genezisi. Lətifə janrı

Gülüşün arxaik köklərini, magik mahiyyətini və doğuluş simvolu olduğunu əsaslandırmaq. Günəşin (od, işıq) gülüş rəmzi kimi qavranılması. Dastan ("Oğuz Xaqan") və nağıllar ("Tapdıq", "Gülxanım"və s.) əsasında gülüşlə bağlı mifoloji süjetlərin təhlili.

Lətifə-gerçəkliyi gülüş yolu ilə əks etdirən janr kimi. Lətifələrin ideya-bədii xüsusiyyətləri. Xalq lətifələrində üç ünsür – incə yumor, hikmətli kəlam və kəskin ironiya. Lətifə janrında konkretlik, yığcamlıq, az sözlə mənalı fikir söyləmək və məqsədəuyğun hərəkət. Təzad lətifə janrının meyarı kimi.

Şərq lətifələri və Avropa anekdotları. Mövzu, motiv, struktur fərqləri və lətifələrə verilən müxtəlif adlar. Orta əsr Şərq mənbələrində (Əbülfərəc, Sədi, Cami, Übeyd, Zəka və b. əsər-

lərində) lətifələr. Ərəb-fars kitab (yazılı) lətifələri ilə türk xalqlarının şifahi lətifələri arasında mənşə, mənbə, poetika baxımından fərqlər.

Azərbaycan lətifələrində əsas qəhrəman tipləri: a) müdrik hazırcavab; b) sadəlövh qəhrəmanlar.

Azərbaycan lətifələrinin toplanması, nəşr və tədqiqi tarixi.

Lətifə mətnləri "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar" – QƏXTMT (СМОМПК) məcmuəsində (1881-1929), (9-cu, 26-ci, 29-cu buraxılışlar). Molla Nəsrəddinin adı ilə bağlı bir sıra lətifələrin 1890-cı ildə A.Zaxarov və A.D.Yeritsev tərəfindən toplanması və rus dilinə tərcümə edilməsi.

Ə.Müznibin "Şeyx Bəhlul"(1910), M.H.Təhmasibin "Molla Nəsrəddin lətifələri" (1939), Əli Abbas Müznib tərəfindən toplanan və H.Zeynallının müqəddiməsi əsasında tərtib edilən "Molla Nəsrəddin məzhəkələri"(1927), "Bəhlul Danəndə lətifələri" (1979), "Şəki lətifələri" (1987), V.Vəliyevin "Ayrım bəzəmələri", T.Fərzəliyev "Azərbaycan xalq lətifələri" adlı monoqrafiyası (1971), S.Abbaslı "Azərbaycan lətifələrinin regional xüsusiyyətləri" (2011), M.Kazımoğlu "Xalq gülüşünün poetikası" (2006), "Folklorda obrazın ikiləşməsi" (2011), "Gülüşün arxaik kökləri" (2005) və s.tədqiqatlar.

A.Nəbiyev, T.Fərzəliyev, V.Vəliyevin və b. irəli sürdüyü təsnifatlar.

[4], [9], [10], [11], [36], [40], [42], [49]

## Mövzu13. Molla Nəsrəddin lətifələri -2saat

Molla Nəsrəddin trikster (təlxək, kələkbaz ) kimi: müdrikliyin və mədəni qəhrəmanın parodiyası. Molla Nəsrəddin obrazının parodoksal semantikası və üçlü məna üçbucağı (Nəsrəddin, molla, eşşək).

Molla Nəsrəddin Yaxın Şərq, Kiçik və Orta Asiya, Balkan, Krım, Qafqaz xalqlarının folklorunun ortaq qəhrəmanı kimi.

Türk tədqiqatlarında (Ahmet Kabaklı, Funda İşıl Şimşek, Ömer Şener və s.) Molla Nəsrəddinin şəxsiyyəti haqqında mülahizələr. P.N.Boratavın 42 illik araşdırma və gərgin zəhməti hesabına başa gələn "Nasreddin Hoca" kitabı.

F.Köçərli, Ə.Müznib, H.Zeynallı,V.A.Qordlevski, M. Sultanov, T.Fərzəliyev, M.Kazımoğlu və başqa tədqiqatçıların araşdırmaları.

Molla Nəsrəddin obrazını mətnlər (lətifələr) əsasında təhlil etmək.

[4], [9], [36], [40], [47], [49], [66]

## Mövzu 14. Bəhlul Danəndə lətifələri –saat2

Bəhlul Danəndə şəxsiyyəti ilə bağlı tədqiqatçıların mülahizələri. Orta əsrlər yazılı ədəbiyyatı və Bəhlul Danəndə lətifələri.

Bəhlul Danəndə lətifələrində islam istilahlarına, Allah kəlamlarına, mənəvi-əxlaq dəyərlərinə söykənən örnəklərin zənginliyi. Lətifə qəhrəmanın obrazında "təsəvvüf əhli", "kamil insan" idealının və konsepsiyasının mahiyyəti xarakterizə etmək.

Azərbaycan folklorunun sərhədləri daxilində formalaşan Bəhlul Danəndə lətifələrinin toplanması, nəşri və öyrənilmə tarixi.

Bəhlul Danəndə lətifələrinin spesifikası və estetik dəyərləri mətnlər (lətifələr) əsasında təhlil edilir.

[4], [9], [26], [36], [40], [60]

## Mövzu 15. Reqional lətifələr –saat 2

Regional lətifələrin kompozisiyası, süjet quruluşunun və obrazlar sisteminin müəyyənləşdirilməsi. Regional lətifələrin yayılma arealına görə təsnifatı (lokal, məhəlli, kütləvi) və onların səciyyəvi özünəməxsusluqları.

Şəki lətifələri - Azərbaycan məhəlli lətifələrinin ən geniş yayılan bir qrupu kimi. Şəki lətifələrinin əsas qəhrəmanları Hacı dayı, Abdulcabbar, Maşax İsfəndiyar, Lütfəli Abdullayev, Şapqaçı Valeh b. Səki lətifələrinin mövzu, motiv, qəhrəman, üslub, gülüşün xarakteri baxımından özünəməxsusluğu. Şəki lətifələrinin yaranmasında yerli mühit və dialektin rolu.

Naxçıvan, Gəncəbasar, Şirvan, Qarabağ, İrəvan, Zəngəzur, Cənubi Azərbaycan və s. bölgələrdə yaranıb yayılan reqional lətifələr və əsas qəhrəmanları.

Lətifələrin yazılı ədəbiyyatda əksi. Ədəbi lətifələr - yazıçı, aktyor, sənət, siyasət adamları, digər tanınmış şəxsiyyətlərin həyatında baş vermiş, yazıya alınıb nəşr olunmuş məzəli əhvalatlar.

[4], [9], [16], [36], [59], [61]

## Sərbəst (fərdi) işlərin mövzuları

1. Azərbaycan mifoloji mətnlərində kosmoqonik miflər
2. Azərbaycan mifoloji mətnlərində etnoqonik miflər
3. Azərbaycan mifoloji mətnlərində təqvim mifləri.
4. «Oğuz Xaqan » dastanında yardılış konsepsiyası.
5. "Kitabi-Dədə Qorqud" abidəsində saylar və rənglər.
6. Təsnifatlar əsasında əfsanə mətnləri danışmaq (7-10).
7. Təsnifatlar əsasında rəvayət mətnləri danışmaq (7-10).
8. Əfsanələrin yazılı ədəbiyyatda əksi.
9. Lətifə və folklorun digər epik janrları (atalar sözü, məsəl, rəvayət) arasında əlaqə
10. Ədəbi lətifələr

## Tədris texnologiyaları, təlimin interaktiv formaları

Bu kursun qarşısında qoyulan məqsədlərə çatmaq üçün ənənəvi metodlarla yanaşı, yeni tədris üsullarından da istifadə

edilməlidir. Müəllimin mühazirə mətnləri, elmi ədəbiyyat (məqalələr, monoqrafiyalar, dissertasiyalar və s.), Azərbaycan mifoloji mətnlərindən ibarət toplular (antologiyalar, külliyyatlar və s.) əsasında təlim ənənəvi üsullardan sayılır. Hər mövzu ilə bağlı slaydların hazırlanması, bunlarda ayrı-ayrı tədqiqatçıların fotolarının, araşdırmaların üz qabığının, titul səhifəsinin göstərilməsi, eləcə də miflərin təsnifatı, hər bir mif bölümünün özünəməxsus xüsusiyyətlərini, Azərbaycan mifologiyasının əsas miflərinin sxemini əks etdirən örnəklər üzərində iş aparılması dərsin keyfiyyətinə müsbət təsirə malik metodlardandır.

## Tədris resursları

Tədris prosesində müəyyən resursların cəlb olunması məqsədəuyğundur. Buraya Azərbaycan mifologiyası haqqında televiziya verilişlərinin çəkilmiş olduğu disklər, slaydların nümayişi üçün lazım olan texniki avadanlıqlar daxildir.

## Ədəbiyyat:

***Əsas:***


1. Abdulla B. "Kitabi-Dədə Qorqud" da rəng simvolikası. Bakı: Çaşıoğlu, 2004, 128 s.
2. Abdulla B. "Kitabi-Dədə Qorqud"da saylar. Bakı: Elm, 2006, 141 s.
3. Azərbaycan mifoloji mətnləri / Tərtib, ön söz və şərhlərin müəllifi A. Acalov. Bakı: Elm, 1988, 196 s.
4. Azərbaycan ədəbiyyatı tarixi, 6 cilddə, I c., Bakı, Elm, 2004, 760 s.
5. Bayat F. Oğuz epik ənənəsi və "Oğuz Kağan" dastanı. Bakı: Sabah, 1993, 194 s.
6. Bəydili C. (Məmmədov). Türk mifoloji sözlüyü . Bakı: Elm, 2003, 403 s.

7. Bəydili C. (Məmmədov). Türk mifoloji obrazlar sistemi: struktur və funksiya. Bakı: Mütərcim, 2007, 272 s.
8. Əsatirlər, əfsanə və rəvayətlər. Bakı: Şərq-Qərb, 2005, 304s.
9. Kazımoğlu M. Gülüşün arxaik kökləri. Bakı: Elm, 2005, 186 s.
10. Qafarlı R. Mifologiya. 6 cilddə. I cild. Mifogenez: rekonstruksiya, struktur, poetika. Bakı: Elm və təhsil, 2015, 454 s.
11. Orucova S.H. Azərbaycan folklorunun toplanma, tərcümə və nəşr problemləri (QƏXTMT – SMOMPK materialları əsasında), Bakı: Elm və təhsil, 2012, 536 s.
12. Pirsultanlı S.P. Azərbaycan türklərinin xalq əfsanələri. Bakı: Azərnəşr, 2009, 427 s.
13. Pirsultanlı S.P. Azərbaycan türklərinin xalq rəvayətləri. Bakı, AMEA, Folklor institutu, 2011, 667 s.
14. Şükürov A. Mifologiya. I kitab, Bakı, Elm, 1995, 188s.
15. Şükürov A. Mifologiya, VI kitab. Qədim türk mifologiyası. Bakı: Elm və təhsil, 1997, 232 s.

***Əlavə:***

16. Abbaslı S. Azərbaycan lətifələrinin regional xüsusiyyətləri, Bakı: Nurlan, 2011, 160 s.
17. Abbaslı İ. Əfsanə və rəvayətlərin janr özünəməxsusluğu. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XI kitab. Bakı, Səda, 2002, s.3-19.
18. Allahverdi R. Təqvim mifləri və Novruz. Bakı:2013, 153 s.
19. Azərbaycan folkloru antologiyası, 2 cilddə, I cild, Bakı: Elm, 1968, 291s.
20. Azərbaycan folkloru antologiyası, 2 cilddə, II cild, Bakı: Elm, 1968, 259 s.
21. Azərbaycan folklor antologiyası: [23 cilddə], Bakı, 2009-2011.
22. Azərbaycan folklor külliyatı: [30 cilddə], Bakı, 2006- 2012.
23. Azərbaycan xalq əfsanələri / Tərtib edən S. Paşayev/ Bakı, Yazıçı, 1985, 286 s.
24. Bahəddin Ö. Türk mifologiyası. I cild. Bakı: “MBM”, 2006, 626 s.

25. Bayat. F. Qissədən əfsanəyə, yazıdan sözə. Folklorlaşan ulul-əzm peyğəmbərlər /Dini folklor I. Bakı, 2021, 230 s.
26. Bəhlul Danəndə lətifələri. Bakı, 2012, 114 s.
27. Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər, 2004, 368 s.
28. Əbülqazi Bahadır xan. Şəcərei- Tərakimə (Türkmənlərin soy kitabı). Bakı, Azərbaycan Milli Ensiklopediyası, 2002, 145s.
29. Əliyev R.M. Mifoloji şüurun bədii spesifikası. Bakı: QartaI, 2001, 100 s.
30. Əliyev R. Riyazi mifologiya. Bakı, 2008, 201 s.
31. Əlizadə A. Antik fəlsəfə tarixi. Bakı, 2016, 288 s.
32. Əsgər Ə. Etnoqonik mətnlər və sosial-siyasi həyat. Bakı: 2019, 180 s.
33. Əsgər Ə. Oğuznamə yaradıcılığı. Bakı: 2013, 340 s.
34. Faruq S. Oğuzlar. Bakı: 2013, 456 s.
35. Fəzlullah Rəşidəddin. Oğuznamə. Bakı, 2003, 107s.
36. Fərzəliyev T. Azərbaycan xalq lətifələri. Bakı: Elm, 1971, 122 s.
37. Güney Azərbaycan folkloru: [ 12 kitab], Bakı, 2013-2021.
38. Həsənova K. "Kitabi Dədə Qorqud" da ənənəvi süjetlər. Bakı: 2018, 151 s.
39. İslamzadə K. Dastan yaradıcılığında cəngavər qadınlar. Bakı: Elm və təhsil. 2019, 210 s.
40. Kazımoğlu M. Xalq gülüşünün poetikası. Bakı: Elm, 206, 268 s.
41. Kitabi Dədə Qorqud /Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə Fərhad Zeynalov və Samət Əlizadə-nindir. Bakı: Yazıçı, 1988, 264 s
42. Qafarlı R. Mifologiya. 6 cilddə. II cild. Ritual-mifoloji dünya modeli. Bakı: Elm və Təhsil, 2019, 432 s.
43. Qarabağ: folklor da bir tarixdir. [10 kitab], Bakı, 2012-2016.
44. Qumilyov L. Qədim türklər. Bakı: Gənclik, 1993, 375 s.
45. Qurani-Kərim. Yenidən işlənmiş XVI nəşr. Ərəb dilindən tərcümə edənlər Z.M.Bünyadov və V.M.Məmmədəliyev. Bakı: Nurlar, 2015, 632 s.

46. Qurbanov.A. Damğalar, rəmzlər...mənimsəmələr. Strateji Araşdırmalar Mərkəzi, Bakı: 2013, 314s.
47. Molla Nəsrəddin lətifələri. Bakı: Öndər, 2004, 304 s.
48. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I kitab. Bakı: Apostroff, 2014, 591 s.
49. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. II kitab. Bakı: Apostroff, 2014, 658 s.
50. Paşayev S. Azərbaycan əfsanə və rəvayətlərinin ədəbi abidələrimizlə müqayisəli təhlili. Bakı: Elm, 2007, 310 s.
51. Pirsultanlı S. Əsatirlər, əfsanələr, rəvayətlər (S.P.Pirsultanlı və digər müəlliflər). Bakı: Şərq-Qərb, 2005, 304 s.
52. Rzasoy S. Oğuz mifologiyası. Bakı, 2009, 290 s.
53. Seyidov M.M. Azərbaycan mifik görüşlərinin qaynaqları. Bakı: Yazıçı, 1983, 326 s.
54. Seyidov M.M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.
55. SMOMPK: Azərbaycan folkloru materialları. I cild ( I, II, III, V, VI, VII, IX, XI buraxılış). Bakı, 2018, 232 s.
56. SMOMPK: Azərbaycan folkloru materialları. II cild (XIII, XVII, XVIII, XVIIII, XX, XXI buraxılış). Bakı, 2019, 264s.
57. SMOMPK: Azərbaycan folkloru materialları. III cild (24-26-31-32-34-35-41-42-ci buraxılış). Bakı, 2020, 320s.
58. SMOMPK: Azərbaycan folkloru materialları. IV cild (7-13-19-24-28-42-ci buraxılış). Bakı,2021, 184 s.
59. Şəki lətifələri. Bakı, 1987, 1991, 1994.
60. Talıblı E. Bəhlul Danəndə lətifələri və təsəvvüf məsələsinə dair//Azərbaycan Folklor nümunələrində milli-mənəvi dəyər-lərin təcəssümü mövzusunda Respublika Elmi Konfransının materialları, Bakı: Elm və təhsil, 2015, 71-80s.
61. Talıblı E. Şəki lətifələrinin qaynaqları və təşəkkülü haqqında // Folklorşünaslıq məsələləri, IV buraxılış, Bakı: BDU-nun nəşri, 1999, s.37-44
62. Təhmasib M.N. Seçilmiş əsərləri: 2 cilddə, I cild. Bakı: 2011, 408 s.

63. Təhmasib M.N. Seçilmiş əsərləri: 2 cilddə, II cild, Bakı: 2011, 443 s.
64. Zülfüqar Əli Şah. Yəhudi, xristian və müsəlman ənənəsində yaradıcının antropomorfik təsviri (təsviredilməzin təsəvvür edilməsi) // Beynəlxalq İslam Fikir İnstitutu. Bakı, “İdrak” İctimai Birliyi, 2022, 96 s.

***Türk dilində:***

65. Boratav P.N.Türk mitolojisi /Oğuzların-Anadolu, Azerbaycan ve Türkmenistan türklerinin mitolojisi. Çeviri Receb Özbay. Ankara: Bilge Su, 2012, 128 s.
66. A. Boratav P.N. Nasreddin Hoca. İstanbul: Islık yayınları, 2014, 446 s.
67. Çoruhlu Y.Türk mitolojisinin anahatları. İstanbul: Kabalçı yayınevi, 2000, 237 s.
68. Ergin, M.Türk dünyası efsanelerinde deyişme motifi //M. Ergin. Ankara: Türk Dil Kurumu Yayınları, cilt I, 1997, s. 4-5
69. İnan A. Tarihte ve bu gün şamanizm. Türkiye: Türk Tarih Kurumu Yayınları, 1986, 242 s.
70. Karakurt D. Türk mitoloji ansiklopedisi. Türkiye, e-kitap, 2012, 907 s.
71. Ögel B. Türk mitolojisi (Kaynakları ve açıklamaları ile destanlar) 2 ciltte, cilt 1, Ankara: TTK yayınları, 1989, 644 s.; c.2, Ankara: TTK yayınları, 1995, 610 s.
72. Radlov V. Türklərin kökləri, dilləri ve halk edebiyyatından denemeler. Ankara: Ekvay yayınları, 1999, 458 s.
73. Tanyu H. İslamlıktan önce türklerde tek Tanrı inancı. Ankara: Ankara Üniversitesi basımevi, 1986, 233 s.

***Rus dilində:***

74. Haytun, D.E. (1956).Perejitki Totemizma u Narodov Sredney Azii i Kazahstana, Tadc.gos.un-ta,c.XIV.

75. Кляшторный С.Г. Мифологические сюжеты в древнетюркских памятниках // Тюркологический сборник, 1977, Москва, 1981, с. 117-137
76. Мамедли М.Парадигмы тюркского мифа (Избранные статьи). Киев: Издательство «Панорама», 2018, 192 с.
77. Мелетинский Е. М. Поэтика мифа. Москва: Наука, 1976, 407 с.
78. Мелетинский Е.М. Палеоазиатский мифологический эпос. Цикл Ворона. Москва: Наука, 1979, 213 с.
79. Мифы народов мира. Энциклопедия в двух томах. /Гл. ред. Токарев С.А. М.: Советская энциклопедия, 1991-1992.